# Azərbaycan dost və qardaş İran xalqının kədərinə şərikdir

Mayın 19-da İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisi, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan, İranın Ali Liderinin Təbriz üzrə nümayəndəsi Məhəmməd Əli Ali Haşim, Şərqi Azərbaycan vilayətinin valisi Malik Rəhmətini Xudafərindən Təbrizə aparan helikopter vilayətin Vərzəqan rayonunda qəzaya uğrayıb. Helikopterin qəzaya uğraması nəticəsində azı 8 nəfər həlak olub. Qəza nəticəsində həlak olanların nəşi Təbrizə göndərilib.

"Fars" agentliyinin yaydığı məlumatda bildirilir ki, Prezident və digər rəsmilərin helikopter qəzasında həlak olması ilə əlaqədar ölkədə 5 günlük milli matəm elan olunub. Həmçinin bu həftə İranda bütün idman tədbirləri ləğv edilib. Helikopter qəzasında həlak olan İran Prezidenti İbrahim Rəisinin cənazəsi çərşənbə axşamı günü Təbrizdən doğulduğu Məşhəd şəhərinə göndəriləcək.

"Tasnim" agentliyi isə dünən Məşhəddə Rəisinin dəfn mərasimi ilə bağlı şura iclası keçirildiyini, əsas küçə və ya meydanlardan birinə mərhum prezidentin adının veriləcəyini bildirib.

İranın Xarici İşlər Nazirliyinin yaydığı məlumatda isə bildirilib ki, İran prezidenti İbrahim Rəisi və xarici işlər naziri Hüseyn Əmir Abdullahiyan İranın mövqeyinin beynəlxalq səviyyədə yüksəlməsində yorulmadan çalışıblar. İran prezidenti və xarici işlər naziri region və dünya səviyyəsində ədalətin bərpa olunmasına dəstək, region ölkələrinin və xalqların dostluq bağlarının və həmrəyliyin yüksəlməsinə və beynəlxalq səviyyədə konstruktiv münasibətlərin formalaşmasına öz töhfələrini veriblər.

→ 2

# Azərbaycan dost və qardaş İran xalqının kədərinə şərikdir

*Əvvəli 1-ci səh.*

Bəyanatda qeyd edilib ki, şübhəsiz İranın yüksəksəviyyəli rəsmilərinin ölümü ölkənin milli mənafeyinin təmin olunması, regional və beynəlxalq səviyyədə İranın konstruktiv mövqeyi, eləcə də rolunda heç bir boşluq yaratmayacaq.

Bəyanatda eyni zamanda deyilir: "İran XİN İran dövləti və xalqının dərdinə şərik çıxan, həmrəyliyi nümayiş etdirən dövlət başçılarına, siyasi şəxsiyyətlərinə və beynəlxalq dairələrin rəhbərlərinə səmimi təşəkkürünü bildirir".

Qeyd edək ki, helkopterin sərt eniş etməsi barədə məlumat yayıldıqdan sonra buna reaksiya verən ilk dövlət başçısı Azərbaycan Prezidenti olub. Dünən İlham Əliyev faciə ilə əlaqədar İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneiyə başsağlığı məktubu göndərib. Dövlət başçısı məktubunda qeyd edib ki, dost və qardaş ölkəyə və xalqına üz vermiş ağır itkilər barədə xəbər onu olduqca sarsıdıb: "Prezident Seyid İbrahim Rəisinin simasında İran xalqı bütün həyatını ölkəsinə fədakarlıqla və sədaqətlə xidmət etmiş görkəmli dövlət xadimini itirdi. Onun əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır". Prezident bu hüznlü gündə Uca Allahdan dost və qardaş İran xalqına səbir və dözüm diləyib, kədərinə şərik olduğunu bildirib, İranın Ali Rəhbərinə, həlak olanların ailələrinə və yaxınlarına, İran xalqına öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

---

Azərbaycan.- 2024.- 21 may, №105.- S.1-2.